8 aprel 2017

WWW.KASPI.AZ



Aygün Bağırlı

# İbrahim Yusifoğludan balalara hədiyyə

Səməd Vurğun "Balalarımız üçün gözəl əsərlər yaradaq" adlı məqaləsində yazırdı: "... məna gözəlliyinin əsas ruhu insana və təbiətə qarşı məhəbbətdir. Uşaq özü canlı olduğundan insan və təbiət aşiqidir. Şeir və nəğmələrimiz, hər şeydən əvvəl, təbiət və insan gözəlliyini tərənnüm edərsə, uşağın onlara qarşı meyil və həvəsi çiçəklənər, o özü də insan olmağı ilə fəxr edər. Siz sual verə bilərsiniz ki, insanların hamısı gözəl və yaxşı deyil ki? Bəs pis adamlar, istismarçılar, qəsbkarlar, oğrular və cibgirlər haqqında uşaqlara məlumat verilməsinmi? Xeyr, tələsməyin! Uşaq həyatının müəyyən dövrü gələcəkdir ki, o özü həyatda gördüyü, eşitdiyi fənalıqlarla maraqlanacaqdır. O zaman biz ona bu anlaqlar haqqında izahat verərik". Böyük şair hər cəhdlə uşaq dünyasını ətraf mühitin mənfi informasiyasından, xoşagəlməz hadisələrin qara dalğasından qorumağa, onların saf təbəssümlərinə çevrələrinin zərər verməməyinə çalışırdı. İbrahim Yusifoğlunun bu yaxınlarda çapdan çıxmış "Göy yerə zəng eyləyir" kitabında müəllifin balacalara məhəbbətlə təqdim etdiyi şeirlər də bu məqsədə xidmət edən bədii nümunələrdir. Müəllif öz şeirləri ilə dünyanı, təbiəti, həyatı balacalara sevə-sevə öyrədir. İbrahim müəllim bütün vətən balalarının timsalında nəvələrinin əlindən tutub onları mərdlik, qəhrəmanlıq, bütövlük simvolu olan Əlincə qalasından tutmuş elləri, obaları gəzdirir, vətənin hər qarışındakı gözəlliyi onlara təqdim edir, tanıdır. Sanki bütün bu var olan, bəzən qan, can bahasına qorunan bu gözəllikləri, maddi və mənəvi sərvətləri balaca nəsillərə ərməğan və əmanət edir. Təbii ki, sevimli babalarından ərməğan olaraq alınan bu sərvətlər balacalar üçün misilsiz dəyər anlamı daşıyacaq. Onlar bu misilsiz dəyərləri yad nəfəslərdən, mənfur niyyətlərdən qorumağa çalışacaqlar. Qoynunda neçə-neçə əfsanələr gizləyən "Arpaçay", haqqında dastanlar qoşulan Xan Araz, Gəmiqaya, Çilənçay, Bülöv gölü, doğma Axura kəndinin "Dana qalası", "Noxudlu düzü", "İydəli dərəsi" adlanan məskənlər şairin yaradıcılığında təkcə poetik vəsfini tapan coğrafi məkan olmaqla qalmır, onların genetik yaddaşdakı funksional obrazları da açıqlanır.

Müəllifin yaradıcılığına xas olan səmimilik görünür, həm də onun müəllimlik peşəsindən, pedaqoji təcrübəsindən qaynaqlanır. Balacaların dilini bilən, onlarla öz dilində danışan şair çox sadə, həyati lövhələrlə onlarda yüksək mənəvi keyfiyyətlər aşılayır. Baba-nənə, nənə-nəvə, baba-nəvə münasibətlərini əks etdirən bədii nümunələr milli ailə modelini, ailədaxili münasibətləri sərgiləmək baxımından da əhəmiyyətli səciyyə daşıyırlar. Maraqlı sual-cavab üzərində qurulan şeirlər dünyanı, ətraf aləmi öyrənmək istəyən balacaya onu əhatə edən çevrəsini tanıtmağa kömək edir. İbrahim Yusifoğlunun şeirlərindəki səmimiyyət özünü İlkanə, Aysun, Aydan, İslam, Araz kimi bir-birinə bənzəməyən qəhrəmanların təqdimində də göstərir. Həyatda bir-birinə bənzəməyən, biri bir qədər küsəyən, bir qədər qoçaq, biri bir qədər "gopçu", "çoxbilən", biri bir qədər tənbəl olan bu poetik qəhrəmanlar şeirdə də öz təbii görüntülərindədirlər. Bu kiçik poetik qəhrəmanların bəzən sadəlövhlüyündən, bəzən də hazırcavablıqlarından şairin şeiri maraqlı poetik tapıntılar qazanır:

***Babacan, ay babacan,***
***Nənəmi də tez çağır.***
***Göydə olan ulduzlar,***
***Qar olub yerə yağır.***

* * *

***Gör nə vaxtdır yağış yağır,***
***Daha yağır ağır-ağır,***
***Ata, yağış yorulubdur,***
***Qoy dincəlsin, evə çağır.***




* * *

***Güllərə bax, güllərə,***
***Gülər baxır güllərə,***
***Deyir, güllər gecədən***
***Yamanca qorxubdular,***
***Doyunca ağlayıblar,***
***Baxın, göz yaşlarını,***
***Ləçəklər saxlayıblar.***

* * *

***Yazıq çaydan dözməyib,***
***Hönkür-hönkür ağladı.***

Şair azyaşlılara təkcə vətəni sevməyi, onu qorumağı öyrətmir, həm də yay tətilini baba nənəsinin yanında keçirməyə gələn nəvələrə kənd həyatını, zəhmətsevərliyi aşılayır, təbiəti, onun sirlərini öyrədir. Milli mətbəximizin ləziz təamlarından (qovut, əriştə, küftə), neçə-neçə gül-çiçəkdən, dərdlər dərmanı olan otlardan, milli oyunlardan bəhs etməklə, bəzilərinin hətta unudulmaqda olan adlarını balacalara öyrədən bu şeirlər dəyərli bədii nümunələrdir.

Yəqin oxuculara kitabın adı ilə eyni olan "Göy yerə zəng eyləyir" şeiri də maraqlıdır. Göyün yerə zəngi necə ola bilər? Bu da İbrahim müəllimin kiçik poetik qəhrəmanlarından birinin - Aycanın fantaziyasıdır. Yağışlı gündür, ildırım çaxır, şimşək hay-küy salır, hər uşaq bu təbiət hadisəsi haqqında bir cür fikir söyləyir. Ən maraqlı şərh isə Aycana məxsusdur: Göy yerə zəng eyləyir.

Kitabda maraqlı olan şeirlərdən biri "Qorxu" adlanır. Övladlar atalarını həmişə hamıdan güclü, əzəmətli, qorxmaz bilirlər. Amma, əslində, ataların içində məhəbbətdən, məsuliyyətdən doğan bir qorxu, bir təlaş da var. Müəllifin qızlarına müraciətlə yazdığı "Qorxu" şeirində dünyanın sabahından nigaran olan, həyəcan keçirən şairin valideyn narahatlığı, kövrəkliyi, atalıq məsuliyyəti hiss olunur. Bunu övladlarına hiss etdirmədən gizlicə içində yaşadan atanın etirafı:

***Qorxuram, yer üzündə yaşayan***
***xoxanlar, xortdanlar,***
***ilanlar, əqrəblər, bövlər,***
***alt dodağı yer süpürən,***
***üst dodağı göy süpürən divlər,***
***Barmaqlarını düyməyə uzada;***
***Yağışlar buludsuz yağa,***
***Dənizlər tufansız coşa,***
***Çaylar yağışsız daşa,***
***Ömürlük yara vurula anamız torpağa!***

Bu təşviş, valideyn nigaranlığı dünya durduqca olacaq. Amma arzu edək ki, övladlardan gizli içimizdə yaşanan bu qorxu məmləkətimizdən də, dünyamızdan da uzaq olsun. Dünyanı körpə gülüşü, uşaq təbəssümü bəzəsin. Balacalar baba, nənə qayğıkeşliyi və nəvazişi ilə əhatələnsin.

İbrahim müəllimin yeni kitabı münasibəti ilə təbrik edir, ona yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.